# MİRZƏ CƏLİL VƏ ÜZEYİR BƏY UCALIĞI

**Noyabrın 8-dən 10-a dək Göyçayda sevinc-sevincə, bayram-bayrama qovuşub. Dövlət Bayrağı bayramı, Nar Festivalı günləri, bu ərəfədə rayonun Qarabaqqal və Müskürlü kəndlərində bir sıra sosial-mədəni obyektlərin açılış mərasimləri... Və "Cəlil Məmmədquluzadənin 150 illiyi və Üzeyir Hacıbəylinin musiqi dünyası" adlı təntənəli tədbir.**



Ədəbi-bədii və musiqili tədbir rəsmi hissə ilə Əli Kərim adına şəhər parkında 2018-ci ildə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadənin təşəbbüsü ilə qurulmuş "Əbədiyaşar Ədiblər" kompleksi önündə başlanır. Səbəbsiz deyil.

Bu gün burada Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri, əfsanəvi "Molla Nəsrəddin" jurnalının banisi Cəlil Məmmədquluzadənin və yazıçı, dramaturq və dahi bəstəkarımız olan Üzeyir bəy Hacıbəylinin "Əbədiyaşar Ədiblər" kompleksi səfində büstlərinin açılışıdır.

Tədbir iştirakçılarının alqışları ilə hər iki büstün lenti kəsilərək üzərlərindəki örtük götürülür. Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə iştirakçıları və ayrıca olaraq qonaqları salamlayaraq təbrik edir. M.Səlimzadə daha sonra hər iki görkəmli sənətkar haqqında, onların misilsiz yaradıcılıqları barədə danışaraq Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəylinin Azərbaycanın digər dahi sənətkarları kimi hər cür hörmətə layiq olduqlarını bildirir.

Tədbirdə çıxış edən xalq şairləri Fikrət Qoca, Sabir Rüstəmxanlı, Milli Məclisin deputatı Elman Nəsirov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı və başqaları da ürək sözlərini bildirirlər.

Tədbirin bədii hissəsi Arif Məmmədov adına Göyçay Uşaq Musiqi Məktəbində davam edir. Burada Cəlil Məmmədquluzadənin əsərlərindən ibarət kitab sərgisi iştirakçıların diqqətini cəlb edir.

Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin zəngin bədii yaradıcılıq ənənələri xalqımızın, oxucuların qəlbində yaşayan Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyinin keçirilməsi haqqında imzaladığı sərəncam hamını sevindirmiş, böyük yazıçının yaradıcılığına diqqəti daha da artırmışdır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlişində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır.



Tədbirin əvvəlində dahi Üzeyir Hacıbəylinin musiqisinin səslənməsi təsadüfi deyildi. Sentyabr ayının 18-nin Azərbaycan musiqisini dünyada tanıdan mənəvi sərvətimiz - Azərbaycan Respublikasının Dövlət Himninin musiqisinin müəllifi Üzeyir Hacıbəylinin anadan olması ilə əlaqədar ölkəmizdə "Musiqi günü" kimi qeyd olunması və eləcə də Göyçayda bu gün Üzeyir Hacıbəylinin büstünün parkdakı kompleksə gətirilməsi bu tədbirin iki istiqamətdə keçirilməsinə əsas verir. Azərbaycan dramaturgiyasının Mirzə Cəlili və Üzeyir musiqisi. Bu gün burada ifa olan hər musiqidə Üzeyir notlarının dərinliyinin, gözəlliyinin misilsiz olduğunu bir daha duyursan.

...Məşhur "Üvertura", "Aşıqsayağı", "Sevgili canan" və "Sənsiz" romansları, "Arazbarı", "Qaragöz" mahnı və musiqiləri...



**"Poçt qutusu"ndan səhnəcik, "Ölülər" əsərindən İsgəndərin məşhur monoloqu, "Arşın mal alan" operettasından səhnəcik, digər mükəmməl ifalar tədbirə əlavə rəng qatır, iştirakçıların qəlbində xoş hislər oyadır, bu dahi sənətkarların məhz bizə məxsusluğunun qürurunu yaşadır.**

**Məzahir ƏHMƏDZADƏ**

Ədalət 2019.- 14 noyabr.- S.5.